DÜNYA

Fransada məktəblilərin etirazları davam edir: 500-dən çox saxlanılan var

Noyabr 02, 2026



Parisdə yaşayış xərclərinin artmasına və yanacaq qiymətlərinin bahalaşmasına qarşı etiraz

Fransada lisey şagirdlərinin etiraz aksiyaları iki həftəlik tətildən sonra yenidən başlayıb. Bu gün - noyabrın 2-də keçirilən nümayişlərin miqyası əvvəlki həftələrlə müqayisədə bir az kiçik olub. Fransa mediası gənclərin Paris, Marsel və Renn şəhərlərində bir neçə liseyin girişini bağlamağa çalışdığını xəbər verir.

Təhsil Nazirliyi səhər saatlarında 41 liseyin – ölkədəki bütün liseylərin təxminən 1 faizinin fəaliyyətinin bloklandığını bildirib. Fransada ümumilikdə 3 mindən çox lisey var. Tətildən əvvəlki həftələrdə isə yüzlərlə məktəbin girişi bağlanmışdı.

"Z nəsli" gənclərinin etiraz dalğası Almaniya, İtaliya, Belçika və Albaniya daxil olmaqla, bir sıra Avropa ölkələrini bürüyüb. Bu etirazlara yaşayış xərclərinin artması, məktəblərin acınacaqlı vəziyyətdə olması və korrupsiya ilə bağlı narazılıqlar səbəb olub.

Təhsil naziri **Eduar Joffre** bu gün səhər "France Inter" radiosuna deyib ki, etiraz aksiyalarının keçirilməsinə icazə verilir, amma məktəblərə girişi bloklamaq qanunsuzdur. Telekanalların yaydığı görüntülərdə hadisə yerlərində polis əməkdaşları görünsə də, onların iğtişaşları yatırmaq üçün tam təchiz olunmadıqları diqqət çəkir.

Şagirdlər köhnəlmiş məktəblərin təmir olunmasını, müəllimlərin sayının artırılmasını və universitetlərdə daha çox yer ayrılmasını tələb edirlər. Təhsil naziri ötən həftə siniflərdə şagird sayının 28 nəfərlə məhdudlaşdırılmasını, məktəblərin təmirinə 4 milyard avro ayrılmasını, ali təhsil ocaqlarında əlavə 15 min yerin yaradılmasını və 2028-ci ilədək yeni qəbul sisteminin tətbiqini təklif edib. Amma məktəblilər bu təklifləri yetərli saymayaraq etirazları davam etdirəcəklərini bildiriblər.

Sentyabrda Paris ətrafında başlayan etirazlar artıq ölkə miqyasında yayılıb və burada təkcə təhsil məsələləri deyil, həm də yaşayış xərcləri ilə bağlı tələblər səsləndirilir. Aksiyalara həmkarlar ittifaqlarının üzvləri və fəallar da qoşulub, bəzi hallarda isə qarşıdurmalar və zorakılıq halları baş verib.

Oktyabrın 31-də keçirilən kütləvi etirazlarda 565 nəfər saxlanılıb. Daxili İşlər Nazirliyi aksiyalara 320 min nəfərin çıxdığını bildirsə də, təşkilatçılar bu rəqəmin 800 min olduğunu deyirlər.

20 oktyabr

İtaliya və Fransada iğtişaşlar. Azərbaycan XİN xəbərdarlıq edib

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) oktyabrın 20-də, son hadisələri nəzərə alaraq, ölkə vətəndaşlarına vacib olmadıqca Fransaya getməməyi, orada olanlara isə çox ehtiyatlı olmağı tövsiyə edib.

Hər hansı fövqəladə vəziyyət yaranacağı halda, vətəndaşlardan Azərbaycanın Fransadakı səfirliyi ilə əlaqə saxlamaları xahiş olunur.



Milanda iğtişaşlar

18 oktyabr

Milanda iğtişaşlarda mağazalar talan edilib, saxlanılanlar var

Bazar günü – oktyabrın 18-də İtaliya polisi Milandakı iğtişaşlar zamanı 271 gənci saxlayıb. Bu xəbəri hakimiyyət orqanları yayıb. Nümayişçilərlə polis arasında toqquşmalar baş verib, mağazalar talan edilib və əmlaka ziyan vurulub. Etirazlar dövlət xidmətlərinin keyfiyyətinin aşağı olmasına və yaşayış xərclərinin artmasına qarşı keçirilir.

Telekanalların yaydığı kadrlarda kapüşonlu bir neçə yüz etirazçının zibil konteynerlərini yandırdığı, şəhərin mərkəzindəki mağazaları, o cümlədən idman malları dükanlarını talan etdiyi görünür. Çevik polis qüvvələri nümayişçilərə qarşı gözyaşardıcı qazdan və su şırnaqlarından istifadə edib.

Polisin bu gün verdiyi məlumata görə, polis bölmələrinə aparılan şəxslərdən 32-si həbs edilib. Onların arasında 23 azyaşlı və 13 xarici ölkə vətəndaşı var. Daha 28 nəfərlə bağlı materiallar isə məhkəmə orqanlarına göndərilib.

Şənbə günü İtaliyanın şimalındakı Milan, Bolonya, Breşiya, Berqamo və Turin şəhərlərində də oxşar toqquşmalar baş verib.

Elə həmin gün qonşu Fransada yaşayış xərclərinin artmasından və dövlət xidmətlərinin keyfiyyətinin pisləşməsindən narazı olan yüz minlərlə insan küçələrə çıxıb. Bu etirazlar ölkədə son illərin ən şiddətli nümayişlərindən biri olub.

İtaliyanın baş naziri **Corca Meloni** zorakılığı pisləyərək vəziyyəti müzakirə etmək üçün bu günə hökumətin iclasını çağırıb. Gələn il İtaliyada seçkilər keçiriləcək.



Emmanuel Makron

Makron kütləvi etirazlardan sonra xalqa müraciət edib

Fransa prezidenti **Emmanuel Makron** dünən – oktyabrın 18-də xalqa müraciət edib. Onun çıxışından əvvəl ölkədə genişmiqyaslı nümayişlər keçirilib; əhali qiymətlərin artmasına, ümumilikdə isə yaşayış xərclərinin bahalaşmasına etiraz edib. Nümayişlər zamanı iğtişaşlar baş verib, vandalizm və talan halları qeydə alınıb.

Makron səkkiz dəqiqəlik çıxışında nümayişçilərin zorakı hərəkətlərini pisləyib. O deyib ki, başqalarının əmlakını dağıdan və talayan şəxslər məhkəmə qarşısına çıxarılacaq və vurduqları ziyanı ödəyəcəklər. Prezident iğtişaşların təşkilatçılarının "çoxsaylı cinayətkar ünsürlərin qoşulduğu radikal ifrat solçu qruplardan olan qiyamçılar" olduğunu bildirib. Dövlət başçısı dağıdılmış mağaza və kafelərin sahiblərinə kompensasiya vəd edib.

Makron onu da vurğulayıb ki, xuliqanlarla öz qanuni tələblərini ifadə etmək üçün küçələrə çıxan insanları bir-birindən fərqləndirmək lazımdır. O, etirazçıların narazılığının əsaslı olduğunu, Fransanın xüsusilə sosial sahədə çətin vəziyyətdə

olduğunu etiraf edib: **"Gənclər deyirlər ki, "bizi gözləyən gələcəyi istəmirik". Biz qəzəbli insanların səsini eşitməliyik".**



Qiymət artımı

Fransa prezidenti yanacağın bahalaşmasının ümumi qiymət artımına təsir göstərdiyini də etiraf edib. Amma o vurğulayıb ki, Fransa yanacaq böhranını törədən amillərə görə məsuliyyət daşımır. Makron yaxın vaxtlarda neft və neft məhsullarının qiymətlərinin artmasının qarşısını almaq üçün Fars körfəzi ölkələri ilə danışıqlar aparacağını vəd edib.

Dövlət başçısı bütün maraqlı tərəflərin – həm etirazçıların, həm də onların etiraz etdiyi şəxslərin iştirakı ilə dialoqun zəruriliyini vurğulayıb: **"Hamı danışıqlar masası arxasına əyləşməli və müzakirələrdə iştirak etməlidir: işçilər, tələbələr, yerli hakimiyyət orqanları, siyasətçilər".**

O, altı aydan sonra Fransada seçkilərin keçiriləcəyini, ölkənin bu seçkilərə demokratiyaya dəstək məsələsində öz birliyini itirmədən getməsinin vacibliyini bəyan edib.



Oktyabrın 17-də Fransada ölkə tarixinin ən böyük etiraz aksiyalarından biri keçirilib. Yaşayış səviyyəsinin aşağı düşməsinə qarşı keçirilən etirazlarda iğtişaşlar və polislə toqquşmalar baş verib.

Təxminən 1800 nümayişçi saxlanılıb, 150-yə yaxın polis əməkdaşı xəsarət alıb. Ümumilikdə 500-ə yaxın insanın xəsarət aldığı bildirilir.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur